Müsəlmandan qəbirdə soruşulduqda: Allahdan başqa ilah olmadığına və Məhəmmədin Allahın Rəsulu olduğuna şəhadət verər”

Bəra ibn Azibdən (Allah ondan razı olsun) rəvayət edilir ki, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: Müsəlmandan qəbirdə soruşulduqda: Allahdan başqa ilah olmadığına və Məhəmmədin Allahın Rəsulu olduğuna şəhadət verər”, və bu, Allahın bu ayəsidir: {Allah iman gətirənləri dünya həyatında və axirətdə möhkəm sözlə sabit edər.} (İbrahim, 27)

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Mömin qəbirdə soruşulacaq. Və onu, bu işə təyin edilmiş iki mələk soruşacaq. Onlar, adları bir neçə hədisdə keçən Münkər və Nəkirdir. O (mömin), Allahdan başqa ilah olmadığına və Məhəmmədin Allahın elçisi olduğuna şəhadət verər. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: Bu, məhz Allahın (Quranda haqqında) buyurduğu möhkəm sözdür: {Allah iman gətirənləri dünya həyatında və axirətdə möhkəm sözlə sabit edər.}(İbrahim, 27)

http://sunnah.global/hadeeth/az/show/4206